# FƏRƏCOV ƏNVƏR SƏYYAD OĞLU



Fərəcov Ənvər Səyyad oğlu 28 iyun 1952-ci ildə Goranboy rayonunun Sarov kəndində doğulmuş, 1968-ci ildə Sarov kənd orta məktəbini bitirmişdir. Sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1974-cü ildə mexanizasiya fakültəsini bitirmişdir. Bir müddət kolxozda işlədikdən sonra 1981-ci ildən isə həyatını daxili işlər orqanlarına bağlayır. O, Türkmənistanın Bezmin şəhərində xüsusi komendaturanın müəssisədənkənar mühafizə şöbəsində növbətçi kimi əmək fəaliyyətinə başlayır. Sonra sahə müvəkkili vəzifəsində çalışır. 1990-cı ildə Özbəkistan Milis Akademiyasını bitirərək Azərbaycan DİN-nin sərəncamına göndərilir. Gəncə şəhər DİŞ-ndə rəis köməkçisi işləyir. 1991-ci ildə doğma rayonuna qayıdır və Todan Polis Şöbəsində pasport-masa rəisi, daha sonra isə Todan Polis bölməsinin rəisi təyin edirlər. O, daim cəbhə bölgəsində olur, bir döyüşdən çıxıb o birinə gedirdi. 18 avqust 1991-ci ildə o yoldaşlarını mühasirədən çıxartmaq üçün qeyri-bərabər döyüşə girir, ermənilərin mühasirəsini yararaq polis əməkdaşlarını itkisiz azad edirlər. Bu əməliyyata görə bölmə rəisi DİN tərəfindən mükafatlandırılır. 11 sentyabr 1991-ci ildə düşmən böyük qüvvə ilə Erkəc, Mənəşli, Buzluq kəndlərinə hücuma keçmişdi. Polis dəstəsi sayca az olsa da, kəndlərin müdafiəsində sayıqlığı əldən vermirdi. Qeyri-bərabər döyüşdə erməni yaraqlıları xeyli tələfat versə də, Ənvər Fərəcov da qəhrəmancasına həlak oldu. Goranboy rayonunda dəfn edilmişdir. Ailəli idi. Bir oğlu, bir qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 214 saylı fərmanı ilə Fərəcov Ənvər Səyyad oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. 1993-cü ildən Sarov kənd tam orta məktəbi Milli Qəhrəman Ənvər Fərəcovun adını daşıyır. Goranboy rayonunda büstü qoyulmuşdur.